

*Tükəzban Vəliqızı*

## *Yağ, ey yağış*

Bir əlim yerdədir, bir əlim göydə,
Yerdən qalxan buxar göydə dumandı.
Ayağım torpaqdan üzülən zaman,
Göylərin yağışı mənə həyandı.

Yağış damlasında güllər, çiçəklər...
Elə bil göylərdən çiçəklər yağır.
Gecələr buldudlar şimşək gözü ilə,
Tələsik, tələsik yerlərə baxır.

Dolanıb dünyanın başına külək,
Buludu hər yerdən qovub gətirir.
Alma, üzüm, heyva nar ilə birgə,
Bizim qapımızda yağış "bitirir".

Qoy yağsın yağışlar sussuz torpağa,
Göylər guruldayır, yerə müjdə var.
Yağış damcıları dəysin budağa,
Tökülsün torpağa yağış almalar.

## *Əbədi deyil*

Baş aça bilmirəm bu həyat nədir,
Nələrdən keçirik nədən ötəri.
Görəsən haraya qaçıbdır fkrim,
Nə var gedəridir, nə var ötəri.

Qəlbimə sığmadı gözlə gördüyüm,
Əyir qamətimi gör neçə dərdim.
Qəlbimin qəhəri boğanda məni,
Özünü yetirir qələm- dəftərim.

Əbədi deyilmiş dünyada heç nə,
Qan axır qəlbimə dəyən yaradan.
Şair düz deyirmiş, indi bilmişəm,
"Dünyada qalacaq yalnız Yaradan!"

## *Allahın yolu*

Allahın quluyuq, eşqin quluyuq,
Alnamazlar bizi yoldan ötənlər.
Gözümün atəşi yandırar səni,
Əvvəl qəlbdə bitir, gözdə bitənlər.

Gözümün içindən yol gedir hara,
Eşidib bilərsən sonunda sənsən.
Harda olursan ol, axtarır gözüm-
Sən mənim ən uzaq sahillərimsən.

Adını gecəyə pıçıldadım mən,
Adın şölə saçdı Ay dodağında.
Gedirdim mən sənə, mən sənə doğru,
Qaranlıq gecənin aydınlığında.

Qəlbimdən yoluma düşmüşdü işıq,
Çünki ürəyimdə Allah eşqi var.
Hara gedəcəksə, getsin eybi yox,
Mənim ürəyimdən başlanan yollar.

ədalət.2017.31 oktyabr.s.8.